"Təsdiq edirəm "
Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində
Regional Su Meliorasiya Xidmətinin idarə heyətinin sədri
Zakir Quliyev
"29" 12 2024-cü il

**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi**
**"Regional Su Meliorasiya Xidməti" Publik hüquqi şəxsin**
**Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin**

## Əsasnaməsi

### 1. Ümumi müddəalar

1.1. "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanı ilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində Regional Su Meliorasiya Xidməti (bundan sonra-Xidmət) publik hüquqi şəxsi yaradılmış və onun Nizamnaməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 26 aprel tarixli 232 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 noyabr tarixli 235 nömrəli Fərmanının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 26 noyabr tarixli 592s nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin 27 dekabr 2024-cü il tarixli FƏ 66 nömrəli əmri ilə Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi (bundan sonra – İdarə) yaradılaraq Xidmətin struktura daxil edilmişdir.

1.2. İdarənin bank hesabları, üzərində Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Regional Su Meliorasiya Xidməti və İdarənin adı həkk olunmuş möhürü, müvafiq ştampı, blankı və sair rekvizitləri vardır.

1.3. İdarənin istehsalat-təsərrüfat fəaliyyəti Xidmət tərəfindən ayrılan vəsaitlər hesabına maliyyələşdirilir.

1.4. İdarənin istifadəsində olan əmlak dövlət mülkiyyətindədir və onun üzərində sahiblik, istifadə və sərəncam hüquqları qanunvericilikdə nəzərdə tutulmuş qaydada və hədlərdə Xidmətə məxsusdur. İdarə müvafiq qaydada bu əmlaka münasibətdə istifadə hüququnu həyata keçirir.

1.5. İdarə öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetlərinin qərar və sərəncamlarını, Agentliyin və Xidmətin əmr, qərar, sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.

1.6. İdarənin tam adı: Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan Regional Su Meliorasiya Xidmətinin Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsidir.

1.7. İdarənin qısaldılmış adı: Naxçıvan SMSİİ

1.8. İdarənin ünvanı: Naxçıvan şəhəri.

## 2. İdarənin fəaliyyət istiqamətləri

2.1. İdarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. istifadəsində olan meliorasiya, irriqasiya, içməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin istismarını təmin etmək;

2.1.2. meliorasiya və irriqasiya sahəsində xidmətlər göstərmək;

2.1.3. suyun mənbədən götürülməsi, emalı, nəqli və təchizatı sahəsində fəaliyyəti həyata keçirmək, habelə istehlakçıların məişət (təsərrüfat)-içməli, istehsalat və digər məqsədlər üçün su ilə təmin olunması, tullantı və yağış sularının axıdılması xidmətlərini göstərmək;

2.1.4. su ehtiyatlarından səmərəli, qənaətlə istifadə olunması və su itkilərinin qarşısının alınması sahəsində tədbirlər həyata keçirmək;

2.1.5. bu Əsasnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

## 3. Xidmətin vəzifələri və hüquqları

3.1. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, İdarənin vəzifələri aşağıdakılardır:

3.1.1. istifadəsində olan su anbarının, magistral kanalların, kəhrizlərin, meliorasiya, irriqasiya, su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması obyektlərinin işlək vəziyyətdə saxlanılmasını təmin etmək;

3.1.2. istifadəsində olan meliorasiya, irriqasiya və qış otlaqlarının su təminatı sistemlərinin istismarını, sel və daşqınlara qarşı mübarizə tədbirlərini həyata keçirmək;

3.1.3. su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin istismarını həyata keçirmək;

3.1.4. yeraltı və yerüstü suların zərərli təsirlərinin qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün tədbirlər planının hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

3.1.5. təbii fəlakət və texnogen qəzalar nəticəsində istifadəsində olan zədələnmiş və ya sıradan çıxmış su təsərrüfatı obyektlərinin bərpasına dair təkliflər vermək;

3.1.6. su itkilərinin qarşısının alınması sahəsində tədbirlərin həyata keçirilməsi ilə əlaqədar aqrar sahədə müasir suvarma sistemlərinin tətbiqinin təşviqi ilə bağlı təkliflər vermək;

3.1.7. sudan qənaətlə istifadə olunmasını, o cümlədən itkilərin qarşısının alınmasını və içməli suyun keyfiyyətinin texniki normativ-hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğunlaşdırılmasını həyata keçirmək;

3.1.8. su obyektlərinin, istifadəsində olan hidrotexniki qurğuların və su təchizatı sistemlərinin təhlükəsizliyini təmin etmək məqsədilə həmin obyektlərdən (onların bir hissəsindən) istifadənin məhdudlaşdırılması, dayandırılması və qadağan olunması barədə Xidmətə təkliflər vermək;

3.1.9. İdarə tərəfindən su obyektlərindən götürülən və onlara axıdılan suların uçotunu aparmaq;

3.1.10. suların axım rejiminə, keyfiyyətinə və istifadəsinə dair məlumatların toplanılmasında iştirak etmək;

3.1.11. təbii fəlakət və texnogen qəzalar nəticəsində su obyektlərində, meliorasiya, irriqasiya, su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərində baş vermiş qəzaların aradan qaldırılması üçün ilkin tədbirlərin görülməsində, onların səbəblərinin müəyyənləşdirilməsində və bu qəzalar nəticəsində dəymiş zərərin qiymətləndirilməsində iştirak etmək;

3.1.12. daşqın və subasma zonalarının müəyyənləşdirilməsində iştirak etmək;

3.1.13. istifadəsində olan meliorasiya, irriqasiya, içməli su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması sistemlərinin pasportlaşdırılması, habelə meliorasiya və irriqasiya sistemlərinin kadastrı sənədlərini hazırlayaraq aidiyyəti üzrə təqdim etmək;

3.1.14. Sudan İstifadəedənlər Birliklərinin (bundan sonra – Birliklər) xidmət göstərdiyi ərazidə yerləşən torpaqların istifadəçiləri istisna olmaqla, mülkiyyət formasından asılı olmayaraq torpaq istifadəçilərinin və uzunmüddətli sazişlərə uyğun olaraq Birliklərin suvarma suyu ilə təchizatını həyata keçirmək;

3.1.15. kəhrizlərin qorunub saxlanılmasını və mühafizəsini təmin etmək;

3.1.16. kəhrizləri uçqunlardan, zibillənməkdən və çirklənməkdən qorunması üçün xüsusi mühafizə zonaları yaratmaq və yaradılmış mühafizə zonalarının rejiminə nəzarət etmək;

3.1.17. Birliklərin istifadəsində olan sistemlər istisna olmaqla, istifadəsində olan meliorasiya və irriqasiya sistemlərinin istismarını həyata keçirmək;

3.1.18. su və su təsərrüfatı obyektlərindən İdarə tərəfindən götürülən suların bölüşdürülməsini təmin etmək;

3.1.19. istifadəsində olan hidrotexniki qurğuların təhlükəsizlik bəyannamələrini tərtib etmək;

3.1.20. istifadəsində olan su təchizatı və tullantı sularının emalı və axıdılması sistemlərinin, sutəmizləyici qurğuların, nasos stansiyalarının, su kəmərlərinin istismarı, cari təmiri və onlara texniki xidmət göstərilməsi işlərini təmin etmək;

3.1.21. su təchizatı üçün suyun mənbədən götürülməsini, emalını, nəqlini və satışını həyata keçirmək;

3.1.22. yağış və tullantı sularının toplanması, təmizlənməsi, təkrar istifadəsi, kənarlaşdırılması sahəsində fəaliyyəti həyata keçirmək;

3.1.23. hüquqi və fiziki şəxslərin müraciətləri əsasında tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması üçün mövcud qaydalara uyğun olaraq sistem və qurğuların texnoloji imkanları nəzərə alınmaqla müvafiq texniki şərtlər vermək və həmin şərtlərə əməl edilməsi üzərində nəzarəti həyata keçirmək;

3.1.24. istifadəsində olan su təsərrüfatı obyektlərindən fiziki və hüquqi şəxslər tərəfindən suyun götürülməsi üçün qurğu və avadanlıqların quraşdırılmasına Xidmətin razılığı ilə obyektlərin istismar və texniki təhlükəsizlik qaydaları nəzərə alınmaqla hazırlanmış layihə-cizgi sənədləri əsasında icazə vermək və bu işlərin həyata keçirilməsinə nəzarət etmək;

3.1.25. istifadəsində olan qoruyucu meşə əkinlərinə aqrotexniki qaydalara uyğun olaraq qulluq etmək və Xidmət tərəfindən təsdiq edilmiş plana əsasən yeni qoruyucu meşə əkinlərinin salınmasını təmin etmək;

3.1.26. su təchizatı sahəsində iş və xidmətlərin göstərilməsi üçün dövlət hakimiyyəti orqanları, hüquqi və fiziki şəxslər ilə müqavilə bağlamaq;

3.1.27. istehsal olunan suyun və axıdılan çirkab sularının miqdarının təyin edilməsi üçün sərföiçənlərin və suölçmə cihazlarının quraşdırılmasını təmin etmək;

3.1.28. istifadəsində olan nasos stansiyalarının, elektrik enerjisi təchizatı obyektlərinin və elektromexaniki avadanlıqların texniki təhlükəsizlik qaydaları əsasında istismarını təmin etmək;

3.1.29. elektrik enerjisindən, yanacaq və sürtkü materiallarından normalar əsasında qənaətlə istifadəni təmin etmək;

3.1.30. istifadəsində olan kəhrizlərdə, meliorasiya, irriqasiya, su təchizatı, yağış və tullantı sularının emalı və axıdılması obyektlərində Xidmət tərəfindən müəyyən edilmiş əsaslı təmir işlərinə, onların keyfiyyətlə və vaxtında icra olunmasına nəzarət etmək, qaydalara uyğun olaraq işlərin qəbul edilməsində iştirak etmək;

3.1.31. qanunvericiliyə uyğun olaraq istismar müddətini başa vurmuş, iqtisadi baxımdan məqsədəuyğun sayılmayan, təmiri və bərpası səmərəli hesab edilməyən istifadəsində olan əsas vəsaitlərin balansdan silinməsi üçün Xidmətə təkliflər vermək;

3.1.32. idarənin istehsal bazasından səmərəli və məqsədyönlü istifadə olunmasını təmin etmək;

3.1.33. işçilərin əmək şəraitinin yaxşılaşdırılmasını, əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası qaydalarına riayət edilməsini təmin etmək;

3.1.34. müvafiq sahədə inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq tədbirlər görülməsi üçün təkliflər vermək, cinayət əlamətləri olduqda isə aidiyyəti üzrə məlumat vermək;

3.1.35. İdarənin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.36. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ-hüquqi aktların tələblərinə uyğun təmin etmək, İdarənin əməkdaşlarının əlavə təhsilinin və peşəkarlığının yüksəldilməsi üçün təkliflər vermək;

3.1.37. İdarəyə ayrılan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.38. İstifadəsinə verilmiş əmlakın qorunub saxlanmasını və təyinatı üzrə səmərəli istifadəsini təşkil etmək;

3.1.39. elm və texnikanın ən yeni naliyyətlərinin və qabaqcıl təcrübənin tətbiqinin təmin edilməsi üçün təkliflər vermək;

3.1.40. hesablarında yaranmış debitor və kreditor borc barədə istehlakçılarla qarşılıqlı üzləşmə aktlarını tərtib etmək və Xidmətə təqdim etmək;

3.1.41. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görmək;

3.1.42. istifadəsində olan hidrotexniki qurğuların təhlükəsizliyinin təmin olunması sahəsində "Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş vəzifələri yerinə yetirmək;

3.1.43. Azərbaycan Respublikası Tarif Şurası tərəfindən təsdiq edilmiş qiymətlərin düzgün tətbiq olunmasını təmin etmək;

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün İdarənin aşağıdakı hüquqları vardır:

3.2.1. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq, işçi qrupları və komissiyalar yaratmaq;

3.2.2. sanitar mühafizə zonalarının yaradılması və rejiminin həyata keçirilməsi məqsədilə qanunvericiliklə müəyyən edilmiş qaydada torpaq sahələri mülkiyyətçilərinin (istifadəçilərinin, icarəçilərinin), həmçinin digər şəxslərin bu zonalarda fəaliyyətlərinin qadağan edilməsi barədə təklif vermək;

3.2.3. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;

3.2.4. əməkdaşlarının dövlət təltiflərinə və digər mükafatlara təqdim edilməsi və onların həvəsləndirilməsi üçün təkiflər vermək.

## 4. İdarə olunma

4.1. Xidmətin Nizamnaməsinin 4.3-cü (İdarənin tabeliyindəki qurumların rəhbərləri, onların müavinləri və baş mühəndisləri Xidmətin sədri ilə razılaşdırılmaqla İdarənin rəisi tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunurlar) və 4.12.9-cü bəndləri nəzərə alınmaqla idarənin ştat cədvəlinə uyğun olaraq idarənin struktur bölmələrinin rəhbərlərinin, işçilərinin vəzifəyə təyin və vəzifədən azad olunmaları Xidmətlə razılaşdırılmaqla (fəhlə heyəti istisna olmaqla) idarənin rəisi tərəfindən həyata keçirilir.

4.2. İdarənin rəisi, onun müavinləri və baş mühəndisi Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri ilə razılaşdırılmaqla Xidmətin sədri tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunurlar.

4.3. idarənin strukturu, ştat cədvəli, gəlir və xərclər smetası Xidmətin sədri tərəfindən təsdiq edilir.

4.4. İdarənin rəisi müəyyən səbəblərdən (məzuniyyət, ezamiyyət, əmək qabiliyyətini müvəqqəti itirmə) iş yerində olmadıqda, onun vəzifə səlahiyyətlərini Xidmətin əmri ilə baş mühəndis və ya müavinlərdən biri icra edir.

4.5. İdarənin rəisi idarənin işini təşkil edir və onun fəaliyyətinə görə Xidmətin qarşısında şəxsən məsuliyyət daşıyır;

4.6. İdarə rəisinin vəzifələri aşağıdakılardır:

4.6.1.. İdarənin daxili intizam qaydalarını müəyyən etmək;

4.6.2. vəzifəyə təyin edilmə və vəzifədən azad edilmə ilə bağlı (Xidmətin nomenkulatursında olan işçilər istisna olmaqla) müvafiq əmrlər vermək, işçilərlə əmək müqavilələri bağlamaq, onlar barəsində qanunvericilikdə müəyyən olunmuş hədlərdə həvəsləndirmə və intizam tənbeh tədbirlərinin görülməsini təmin etmək;

4.6.3. idarənin strukturunun, işçilərinin say həddinin və əməkhaqlarının (əməkhaqqına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiq edilməsi üçün Xidmətə təkliflər vermək;

4.6.4. idarənin struktur bölmələrinin əsasnamələrini, işçilərin vəzifə təlimatlarını təsdiq etmək;

4.6.5. səlahiyyətlərinin həyata keçirilməsi üçün Xidmətə təkliflər vermək və sənədlər (o cümlədən idarənin maliyyə hesabatını və fəaliyyətinə dair illik hesabatı) təqdim etmək;

4.6.6. bu Əsasnamənin 3.1.37-ci yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.6.7. İdarənin fəaliyyəti ilə əlaqədar icrası məcburi olan əmrlər vermək;

4.6.8. bu Əsasnamə ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində idarənin adından əməliyyatlar aparmaq, müqavilələr bağlamaq və onların yerinə yetirilməsini təmin etmək;

4.6.9. fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görmək;

4.6.10. kargüzarlıq və arxiv işinin aparılmasını təmin etmək;

4.6.11. müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin etmək.

## 5. İdarənin fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

5.1. idarənin fəaliyyətinə nəzarəti Xidmət həyata keçirir.

5.2. idarənin fəaliyyətinə dair illik hesabat Xidmətə təqdim edilir.

## 6. İdarədə uçot və hesabat

6.1. İdarənin maliyyə ili yanvar ayının 1-də başlayır və dekabr ayının 31-dək olan dövrü əhatə edir.

6.2. İdarənin maliyyə-təsərrüfat balansı Xidmətin icmal balansına aiddir.

6.3. İdarə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib və təqdim edir.

## 7. İdarənin ləğvi və yenidən təşkili

7.1. İdarənin ləğvini və yenidən təşkilini Agentliyin sədri həyata keçirir.

## 8. Digər müddəalar

8.1. Bu Əsasnamə 2 (iki) nüsxədə tərtib olunmuşdur. Bir nüsxəsi Xidmətdə, bir nüsxəsi isə İdarədə saxlanılır.

8.2. Əsasnamə, ona edilən dəyişiklik və əlavələr Xdmətinin sədri tərəfindən təsdiq edilir və təsdiq edildiyi andan qüvvəyə minir.

8.3. Əsasnamə Xidmətin sədri tərəfindən təsdiq edildikdən sonra Xidmətin Hüquq və İnsan resursları şöbəsində qeydiyyata alınır.